# AZƏRBAYCAN RESPUBLİKASI
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# SƏRƏNCAMI

**Bakı şəhəri** **№ 1/16** **07 aprel 2015-ci il**

**“Azərbaycan Respublikası Auditorlar Palatasının mükafatları haqqında” Əsasnamənin hazırlanması barədə**

Azərbaycan Respublikasında auditin inkişafında və auditor peşəsinin nüfuzunun yüksəldilməsində xüsusi xidmətləri olan, Auditorlar Palatasının ictimai həyatında və fəaliyyətinin genişləndirilməsində, beynəlxalq əlaqələrin qurulmasında mühüm rol oynayan şəxslərin mənəvi həvəsləndirilməsi işinin təkmilləşdirilməsi məqsədilə

**QƏRARA ALIRAM:**

**1.** “Azərbaycan Respublikası Auditorlar Palatasının mükafatları haqqında” Əsasnamənin hazırlanması məqsədəmüvafiq hesab edilsin.
**2.** “Azərbaycan Respublikası Auditorlar Palatasının mükafatları haqqında” Əsasnamənin layihəsini hazırlamaq üçün aşağıdakı tərkibdə işçi qrupu yaradılsın:

***İşçi qrupunun rəhbəri:***

| | |
|---|---|
| Bayramov Qəşəm Hacalı oğlu | - Auditorlar Palatası Aparatının rəhbəri |

***İşçi qrupunun üzvləri:***

| | |
|---|---|
| Gülməmmədov Səbuhi Yediyar oğlu | - Kard hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi, Həmkarlar İttifaqı Komitəsinin sədri |
| İbrahimov Elnur Elxan oğlu | - Qanunvericilik və hüquqi məsələlər üzrə komitənin sədri, sərbəst auditor |

**3.** İşçi qrupuna tapşırılsın ki, 1 (bir) ay müddətində “Azərbaycan Respublikası Auditorlar Palatasının mükafatları haqqında” Əsasnamənin layihəsini hazırlayıb baxılmaq üçün təqdim etsinlər.

**PALATANIN SƏDRİ** **V. NOVRUZOV**